6. Məmmədov F. İdarəetmə mədəniyyəti. Bakı – 1213
7. Perception: A Concept Analysis. International journal of nursing knowledge. February 2012
8. United nations educational, scientific and cultural organization. UNESCO World Heritage Centre. WHC. 12/01 July 2012

**Резюме**

**Гаджамова Зейнаб Ахмед кызы**

**Социально-психологический анализ взаимосвязи культурных критериев с социальным восприятием в управлении**

В процессе социального восприятия в межличностных отношениях возникайют некоторые недостатки, которые со временем становятся все более серьезными. Таким образом, когда человек присоединяется к соответствующей социальной группе, ограниченные умственные способности препятствуют его деятельности. В результате человек начинает изолировать себя от общества. Социальные отношения человека ослабевают, и эта ситуация начинает влиять на его личную жизнь. В этом случае *самоутверждение* является наиболее подходящим способом.

Сущность жизни определяется ценностями, которые ему дает человек. Когда нормы и критерии, регулирующие систему ценностей (научные, психические, социальные, культурные, экономические, политические и т. д.), сосуществуют друг с другом, человек чувствует себя целостным.

**Summary**

**Hajamova Zeynab Ahmed**

**Socıo-psychologıcal analysıs of the relatıonshıp of cultural crıterıas wıth socıal perceptıon ın management**

In the process of social perception in interpersonal relations, some shortcomings arise, which over time become more and more serious. Thus, when a person joins an appropriate social group, the limited mental capabilities impede his activity. As a result, a person begins to isolate himself from society. A person's social relationships are weakening, and this situation is beginning to affect his personal life. In this case, *self-assertion* is the most appropriate way to act. Thus, the essence of life is determined by the values that an individual gives him.

When norms and criteria governing the system of values (scientific, mental, social, cultural, economic, political, etc.) coexist with one another, a person feels complete.

**Hüseynli Səriyyə Səfər qızı**
*Azərbaycan Dillər Universiteti*

# İBTİDAİ SİNİFLƏRDƏ İNCƏSƏNƏT NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

***Açar sözlər**: ibtidai siniflər, mədəniyyət, incəsənət nümunələri, şəxsiyyət, təlim, keyfiyyət, formalaşma*

***Ключевые слова**: начальные классы, культура, примеры искусства, личность, обучение, качество, формирование*

***Key words:** primary schools, culture, examples of art, personality, education, quality, formation*

Azərbaycan təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri hərtərəfli, yüksək mədəniyyətə malik şəxsiyyətin formalaşdırılmasıdır. Bu işin aktuallığı müasir dövrdə uşaqlara həyati və bədii-estetik dəyərlərin aşılanmasını, yenidən nəzərdən keçirilməsini və təhlil edilməsini zəruri edir. Şəxsiyyətin formalaşdırılması xalqımızın qədim dövrlərdən indiyə qədər əldə etdiyi dəyərlərə və dünya miqyasında tanınan bədii-estetik əsərlərə müraciət etmədən mümkün deyil. Buna görə də

ibtidai sinif şagirdlərinin zövqünü, davranışını formalaşdırmaq, cilalamaq və hər hansı bir fəaliyyət prosesində yüksək məharət və bacarıq göstərməsi üçün təlim prosesində və təlimdənkənar vaxtlarda incəsənətin müxtəlif nümunələrindən istifadə etmək məqsədəuyğun hesab edilir.

Bu gün böyüməkdə olan nəslin yaradıcı təfəkkürə malik şəxsiyyət kimi formalaşması və inkişafına elmi əsaslarla konseptual yanaşılması zərurəti meydana çıxmışdır. Buna görə də indiki dövrdə şagirdlərin informasiya bolluğu şəraitində düzgün istiqamətlənməsi üçün yaradıcı qabiliyyətlərini düzgün inkişaf etdirmək mühüm vəzifədir. Bu vəzifənin yerinə yetirilməsində incəsənət nümunələrindən istifadə edilməsinin əhəmiyyəti böyükdür.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun "Təhsilverənlərin hüquq və vəzifələri" adlanan 33-cü maddəsinin 33.3.4. bəndində qeyd olunur ki, müəllim şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamalıdır [5]. Sözsüz ki, milli və ümumbəşəri dəyərlərə hər bir xalqın mədəniyyəti və incəsənəti də aid edilir.Öz milli mədəniyyətini və incəsənətini bilməyən insan ümumbəşəri dəyərləri də qiymətləndirə bilməz.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası"nda təhsil sisteminin başlıca vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

– ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

– məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

– milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq [1].

Sözsüz ki, şagirdlərdə mədəni vərdişləri formalaşdırmadan, mənəviyyatı zənginləşdirmədən bu vəzifələri reallaşdırmaq olmaz.

Mədəniyyət sahəsində incəsənətin öz yeri vardır. Prof. F.T. Məmmədov mədəniyyət anlayışını bu cür izah edir:

Elmi anlamda mədəniyyət – üçlükdür: təbiətin, insanın özünün və cəmiyyətin dərk edilməsi və dəyişdirilməsi prosesidir, nəticədə yaradılan ruhi (əqli və mənəvi) və maddi dəyərlər və normalar, həmçinin onların istehsal, qorunma, istifadə və translyasiya (ötürülmə) texnologiyalarıdır.

Kontekstual anlamda mədəniyyət – hər hansı bir hadisənin, fəaliyyət sahəsinin, fərdi və sosial münasibətlərin və ya insanın özünün inkişaf səviyyəsinin keyfiyyət xarakteristikasıdır. Bu anlayış insanın, millətin, cəmiyyətin və bütövlükdə bəşəriyyətin həyat fəaliyyətinin müxtəlif sahələrinə münasibətdə tətbiq edilə bilər.

Məhdud və adi anlamda mədəniyyət – bu, başlıca olaraq, dil, ədəbiyyat, incəsənət, folklor, ənənələr, mədəni irs və etik normalardır [ 4,31] .

Sözsüz ki, deyilən fikirlərin təməli kiçik yaşlarda qoyulmalıdır.

İncəsənət nümunələrindən məqsədyönlü istifadə təlim keyfiyyətini yüksəltməklə yanaşı, şagird şəxsiyyətinin inkişafı üçün də zəmin yaradır.

İncəsənət bəşəriyyətin mənəvi mədəniyyətinin tərkib hissəsi olmaqla özündə təsviri fəaliyyəti, musiqini, rəqsi, teatr və kinonu ehtiva edir. Məktəb təcrübəsi göstərir ki, kiçik yaşlı şagirdlərin təhsilində sözügedən sahələrə diqqət yetirmək, nümunələrdən istifadə etmək təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. Lakin bu işin sistemli olaraq aparılmasına ehtiyac vardır.

Uzun müddət incəsənət insanın gözəlliyə sevgisini təmin edən mədəni fəaliyyətin bir növü olmuşdur. Sosial estetik norma və qiymətləndirmənin təkamülü ilə əlaqədar olaraq estetik ifadəli formaların yaranmasına istiqamətlənən hər bir fəaliyyət incəsənət adını almışdır. Məhz bu, özündə bütün fəaliyyət növlərini birləşdirərək şəxsiyyətin inkişafına və formalaşmasına geniş təsir gücünə malikdir: dəyəryönümlü və yaradıcı prosesdir. L.S.Vıqotskiy qeyd edir ki, incəsənətin tətbiqi əhəmiyyəti son nəticədə tərbiyəvi təsirə gətirib çıxarır [6,242].

İncəsənət insanın müəyyən estetik ideallara uyğun bədii yaradıcılığında gerçəkliyin təzahürünün və formalaşmasının xüsusi növüdür. İncəsənətin növlərini üç qrupa ayırmaq olar:

I qrupa təsviri sənət – rəsm əsərləri, qrafika, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət, dizayn, memarlıq (layihələndirmə) aid edilir.

II qrupa musiqi və ədəbiyyat aid edilir.

III qrupa kino, teatr və sirk aid edilir.

Məlumdur ki, ibtidai siniflərdə incəsənət nümunələrindən istifadə uşaqların estetik tərbiyəsi ilə əlaqədardır. Respublikamızın görkəmli alimlərindən akademik M.M.Mehdizadə, professor Ə.Ş.Həşimov, V.C.Xəlilov estetik tərbiyənin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri, imkanları, vasitələri, həyata keçirilməsi yolları ilə bağlı çox dəyərli fikirlər söyləmişlər.Onlar təhsil sahəsində estetik tərbiyə məktəbinin təməlini qoyanlardırlar.

Prof.İ.H.Cəbrayılov "Müasir təhsil: axtarışlar və perspektivlər" kitabında yazır: "Məlumdur ki, təhsil prosesi təkcə biliklərin qazanılması ilə məhdudlaşmır. Burada eyni zamanda mənəvi-əxlaqi keyfiyyətlər də əldə edilir, yəni təhsilalanlar həm də tərbiyəvi təsirlərin nəticəsində milli və bəşəri dəyərləri mənimsəmiş, fəal, müstəqil şəxsiyyət kimi formalaşırlar. Ona görə də təhsil müəssisələrində təlim-tərbiyə işinin vəhdətdə nəzərə alınması, müasir yanaşmaların daim diqqətlə saxlanılması vacibdir" [2,16].

Bununla bahəm elmi-pedaqoji mənbələrin öyrənilməsi göstərir ki, ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlimin keyfiyyətinə təsiri məsələləri kifayət qədər öyrənilmədiyi üçün bu sahədə pedaqoji nəzəriyyələrin inkişaf səviyyəsi ilə praktik tələblər arasında ziddiyyətlər mövcuddur:

- ibtidai siniflərdə incəsənət nümunələrinin səmərəli tətbiqi imkanları haqqında pedaqoji və psixoloji təsəvvürlərin mövcudluğu ilə pedaqoji şərtlərin və şəraitin kifayət qədər işlənməməsi arasında;
- sürətlə ikişaf edən uşaq yaradıcılığı ilə müxtəlif növ incəsənət nümunələrinin şəxsiyyətin inkişafına təsiri üzrə proqram və tövsiyələrin işlənməməsi arasında və s.

Məktəb təcrübəsinin öyrənilməsi göstərir ki, incəsənətin müxtəlif istiqamətləri üzrə (təsviri fəaliyyət, musiqi, rəqs və s.) tədqiqat işləri aparılsa da, ümumilikdə incəsənət nümunələrindən istifadənin təlim keyfiyyətinin yüksəldilməsinə təsiri probleminin nəzəri və praktik məsələləri kifayət qədər işlənilməmişdir.

Beləliklə, təlim prosesi və nəzəriyyə arasındakı ziddiyyətlərin, həmçinin mövcud nöqsanların aradan qaldırılması üçün pedaqoji şərtlərin aşkar edilməsi "İbtidai siniflərdə incəsənət nümunələrindən istifadənin təlim keyfiyyətinin yüksəldilməsinə təsiri" mövzusunda tədqiqat aparmağa zərurət yaranmışdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi", 2013, 25 oktyabr, № 41
2. Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013, 296 s.
3. Xəlilov V.C. Seçilmiş əsərləri. X cild, Bakı: "Nərgiz", 2013; 304 s.
4. Məmmədov F.T. Kulturologiya,mədəniyyət, sivilizasiya. Bakı, "OL" MMC, 2016; 260 s.
5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. // Təhsil xəbərləri, 2009, № 6
6. Выготский Л.С. Психология искусства. Москва: Педагогика, 1987, 344с (с.242)

**Резюме**

**Гусейнли Сария Сафар кызы**

**Сущность и значимость использования примеров искусства в начальных классах**

В статье раскрывается сущность и значимость использования примеров искусства на уроках и внеклассных занятиях начальных классов азербайджанской школы. Ввиду того, что недостаточно изучены вопросы влияния использования примеров искусства на качество обучения в начальных классах, существуют некоторые противоречия между уровнем развития педагогических теорий в этой области и практическими требованиями. Новизна

исследования заключается в том, что теоретически обосновывается влияние примеров искусства на качество обучения. Указывается роль и место примеров искусства в формировании у учащихся творческих способностей и культурных качеств.

**Summary**

**Huseynli Seriye Sefer**

**Essence and importance of using art examples in primary school**

Formation of personality is impossible without referring to the values that our people have acquired since ancient times and the world-renowned artistic and aesthetic works. Therefore, it is advisable to use different examples of art in the learning process and in the non-training to form, polish and demonstrate the skills and abilities of primary school students. The article explains the importance and the importance of using examples of art in the lessons and axtracurricular activities of Azerbaijan primary school. The role and place of art are stated in shaping the students' creative abilities and cultural qualities.

**Hacıyeva Günel Kərim qızı**
*Azərbaycan Dillər Universiteti*

## İDİOMATİK İFADƏLƏRİN ŞİFAHİ NİTQDƏ TƏDRİSİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *idrakın yeni strukturu, sosial tərəfdaşlıq, nitqin ekspressivliyi*
***Ключевые слова:*** *новая структура познания, социальное партнерство, выражение речи*
***Key words:*** *new structure of cognition, social partnership, expressivity in speech*

Qloballaşan dünyamızda ölkəmizin inkişafı ilə əlaqədar müxtəlif sahələr üzrə beynəlxalq münasibətlərin qurulması və hərtərəfli inkişafı xarici dillərə yiyələnməni zəruri etmişdir. Ölkələrarası iqtisadi, siyasi, mədəni dialoqların aktiv şəkildə qurulması xarici dillərə olan zərurəti və onların müasir metodikasına olan dəyəri daha da artırmışdır. Ölkəmizdə baş verən sosial və iqtisadi reformlar universitetlərdə, əsasən də ixtisas universitetlərində xarici dillərə, daha dəqiq desək, ingilis dilinə yalnız ünsiyyət vasitəsi kimi deyil, modernləşmiş təhsil dili, texnologiya dili, elmin dili kimi geniş tədrisinə ehtiyac duyulur.

Şifahi ünsiyyətin əmələ gəlməsi prosesində sırf insan faktoru durur. Məhz şifahi ünsiyyətin yaranması üçün konkret ifadələr, frazalar insanın özünü, hiss və duyğularını, fikir və düşüncələrini ifadə edən birbaşa vasitələrdir. İdiomlar isə insanın sonrakı inkişaf mərhələlərində frazalardan törəmiş söz birləşmələridir. İdiomatik ifadələr ibtidai ünsiyyət mərhələsindən sonra insan həyatının müxtəlif sferalarında, ta qədimdən fiziki-əmək və məişət mühitində yaranmış, illər, əsrlər sonra ictimai, mədəni, elmi, siyasi aktivlik şəraitində formalaşmış və mərhələli inkişaf yolunu keçmiş birləşmələrdir. Bu inkişafın əfzəl faktoru yenə də insan, mühüm elementi isə ünsiyyət olmuşdur. Şifahi ünsiyyət özlüyündə çox mürəkkəb psixo-fizioloji proses olub birinci və ikinci tərəfin beyin yarımkürəciklərinin qarşılıqlı əlaqəsindən ibarətdir.

İnsanlar öz fikirlərini qısa və konkret ifadə etmək üçün idiomatik ifadələrdən yararlanırlar. Onların vasitəsilə ərz olunan hər hansı bir fikir daha canlı, təsirli ifadə olunmaq imkanı yaradır. İdiomatik ifadələr hər bir xalqın milli nişanələrini özlüyündə daşıdığından onlar həmin xalqın həyat tərzini, fərdi xüsusiyyətlərini, təxəyyülünü, düşüncə tərzini əks etdirmiş olurlar. Beləliklə, hansısa bir xalqın idiomlarını öyrənməklə biz həmin xalqı daha yaxından tanımış, adət-ənənələrinə, təfəkkürünə dərindən bələd olmuş oluruq.

L. V. Şerba belə bir yanaşma ilə çıxış edir:

"Müxtəlif dil məfhumları üst-üstə düşmədiyindən, xarici dilin öyrənilməsi prosesində həmin məfhumlar haqda təsəvvürün yaranması üçün ifadələrin yalnız yeni formalarını mənimsəmək yox,